

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 80 (22.991)

*1 may 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 30-da Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanış olub.

Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevə raport verib.

Prezident, Ali Baş Komandan İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin tikintisini əks etdirən filmə baxıb, gəmilərin texniki göstəriciləri ilə tanış olub.

Sonra Dövlət Sərhəd Xidmətinin yeni xüsusi təyinatlı döyüş texnikasına, raket komplekslərinə, zərbəendirici pilotsuz uçan aparatlarına, silahlara, nəqliyyat vasitələri üzərində texniki-nəzarət stansiyalarına, idarəetmə və digər təyinatlı avadanlıqlara baxış keçirilib.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yeni inşa olunan "Tufan" tipli sərhəd gözətçi gəmisi ilə tanış olub.

Bildirilib ki, yeni gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhəd sularında rejimin təmin olunması, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə ediləcək.



## Naxçıvanda yaz iməcilikləri davam edir





İnsan həyatı üçün vacib olan amillərdən biri də sağlam ekoloji mühitin yaradılmasıdır. Muxtar respublikada keçirilən iməciliklər, təbiətin qorunması və yaşıllıqların genişləndirilməsi sahəsində görülən işlər də bu məqsədə xidmət edir. Bu ilin yaz əkini mövsümündə muxtar respublikada 170 hektardan artıq sahədə meyvə bağı və yaşıllıq zolaqları salınmışdır.

Aprelin 28-də muxtar respublikada növbəti iməciliklər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinə gedən yolun kənarındakı 3 hektarlıq meyvə bağında keçirilən iməcilikdə iştirak etmiş, bərpa əkini aparmışlar. Meyvə bağında 200-ə yaxın meyvə və həmişəyaşıl ting əkilərək suvarılmış, aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, yeni tinglər əkmişdir. Ali Məclisin Sədri muxtar respublikada bərpa əkinlərinin davam etdirilməsi, əkin üçün yararlı olmayan torpaq sahələrində meyvə və üzüm bağlarının salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin aprel ayında bir sıra qərarlar qəbul etmişdir. Nazirlər Kabinetinin 2018-ci il 5 aprel tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin vəzifə maaşları sxeminin və məbləğlərinin, vəzifə maaşlarına əlavələrin məbləğlərinin təsdiq edilməsi haqqında" 2016-cı il 3 avqust tarixli 79 nömrəli və "Naxçıvan Muxtar Respublikasında bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" 2018-ci il 15 mart tarixli 46 nömrəli qərarlarında dəyişikliklər edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli qərarları ilə "Elektron xidmət növlərinin Siyahısı"nda dəyişikliklər edilmiş, "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları" təsdiq edilmişdir. Müvafiq Qaydalara görə müəllimlərin dövlət ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müsabiqə yolu ilə həyata keçirilir. Müəllimlərin işə qəbulu müsabiqəsində orta ixtisas və ali təhsil müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom), yaxud ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmə haqqında sənəd almış, xarici ölkədə aldığı təhsil sənədi qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər. Həmçinin Nazirlər Kabinetinin 2018-ci il 16 aprel tarixli qərarları ilə "Qiymətli metallardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması ilə məşğul olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən məhsullarına öz ad damğalarının vurulması Qaydaları", "Qiymətli metalların və qiymətli daşların, onlardan hazırlanan məhsulların uçotu, saxlanılması, daşınması, hesabatının aparılması, habelə onlarla əməliyyatlar aparılması Qaydaları", "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məhsulların daşınması zamanı hüquqi şəxslər, habelə qiymətli metallar və qiymətli daşlarla əməliyyatlar həyata keçirən fərdi sahibkarlar tərəfindən onların mühafizəsinin həyata keçirilməsi Qaydaları" və "Qiymətli metalların və qiymətli daşların istehsalı, emalı, istifadəsi və dövriyyəsi zamanı onların kəmiyyətinin, keyfiyyətinin uçotunun və hesabatının aparılması Qaydası" təsdiq edilmiş, "Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

## Muzeylərimiz ziyarət olunub

***Aprelin 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksində olublar.***



Məlumat verilib ki, "Əlincəqala" tarixi abidəsi və "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən bərpa olunub. Qala I-VI əsrlərdən başlayaraq müdafiə istehkamı və yaşayış yeri kimi istifadə edilib, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərib.

Muzeylə tanışlıq zamanı bildirilib ki, muzey binası 2 iş otağı və ekspozisiya zalından ibarətdir. Muzey fondunda olan 250 eksponatdan 167-si ekspozisiyada nümayiş olunur.

Mədəniyyət müəssisəsi ilə tanışlıqdan sonra "Əlincəqala" tarixi abidəsinə gəzinti təşkil olunub. Burada qeyd edilib ki, bərpa işləri zamanı abidənin tarixiliyi qorunub saxlanılıb. Qalanın zirvəsinə doğru yol çəkilib, ərazidə işıqlandırma sistemləri yaradılıb, oturacaqlar qoyulub, yaşıllıqlar salınıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının kollektivi "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Ali Məhkəmə, Naxçıvan Şəhər Məhkəməsi və ixtisaslaşdırılmış məhkəmələrin əməkdaşları Ədəbiyyat Muzeyini, Dövlət Təhlükəsizlik Xidmətinin kollektivi Dövlət Bayrağı Muzeyini, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Hərbi Prokurorluq və Naxçıvan Şəhər Prokurorluğunun əməkdaşları Heydər Əliyev Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının kollektivi Cəlil Məmmədquluzadənin ev-muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin əməkdaşları Bəhruz Kəngərli Muzeyində, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyində, Dövlət Gömrük Komitəsinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasında, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin kollektivi isə Nəbatat bağında olublar.

Qeyd edək ki, aprelin 28-də muxtar respublikanın şəhər və rayon İcra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində fəaliyyət göstərən muzeyləri ziyarət ediblər.

**Nail ƏSGƏROV**

# Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü ilə əlaqədar tədbirlər keçirilmişdir

***Aprelin 28-də akademik Zərifə xanım Əliyevanın adını daşıyan Naxçıvan Şəhər Poliklinikasında görkəmli oftalmoloq-alimin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.***

Tədbir iştirakçıları əvvəlcə Naxçıvan Şəhər Poliklinikasının foyesində akademik Zərifə xanım Əliyevanın büstü önünə gül qoymuş, görkəmli alimin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxmışlar.

Poliklinikanın iclas zalında keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirmişdir ki, bu gün görkəmli oftalmoloq-alim, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 95 illiyi tamam olur. Bununla bağlı olaraq muxtar respublikada görkəmli akademikin həyat və fəaliyyətinə həsr olunmuş silsilə tədbirlər keçirilir, əziz xatirəsi yad edilir. Rəhman Məmmədov Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin nümayəndələrinə akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən tədbirlərdə iştirak etdiklərinə görə minnətdarlığını bildirmişdir.





Rəhman Məmmədov qeyd etmişdir ki, akademik Zərifə xanım Əliyevanın mənalı ömrü, keçdiyi şərəfli həyat yolu nəsillərə mənəviyyat məktəbi, xalqa təmənnasız xidmət nümunəsidir. Görkəmli akademik Azərbaycanda vaxtilə geniş yayılmış traxoma xəstəliyinin qarşısının alınmasında böyük xidmətlər göstərmiş, ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamət olan “peşə oftalmologiyası”nın əsasını qoymuş, fundamental tədqiqatlar aparmışdır. Zərifə xanım Əliyeva təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksək biliyə malik oftalmoloq-həkimlərin formalaşması, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə də xüsusi diqqət yetirmişdir.

Zərifə xanım Əliyeva Azərbaycanda elə bir oftalmologiya məktəbi yaratmışdır ki, bu məktəb bu gün də öz mövqeyini və əhəmiyyətini itirməyən sahələrdən biri olaraq qalır.

12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 160-dan çox elmi işin, 1 ixtira və 18 səmərələşdirici təklifin müəllifi olan Zərifə xanım Əliyeva zəngin elmi fəaliyyəti ilə həkim-oftalmoloqdan akademikə qədər yüksəlmişdir.

Rəhman Məmmədov bildirmişdir ki, görkəmli akademik Zərifə xanım Əliyevanın xalqımız qarşısında xidmətləri unudulmamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada oftalmoloq- alimin yubileyləri geniş qeyd olunmuş, sənədli film hazırlanmış, xatirəsi əbədiləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Akademik Zərifə Əziz qızı Əliyevanın xatirəsinin əbədiləşdirilməsi haqqında” 23 avqust 2005-ci il tarixli Sərəncamı ilə Şahtaxtı kənd tam orta məktəbinə akademik Zərifə xanım Əliyevanın adı verilmişdir. Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində və Naxçıvan Şəhər Poliklinikasında görkəmli akademikin xatirəsinə büst qoyulmuş, fəaliyyətini əks etdirən muzey və guşələr yaradılmışdır.

Görkəmli akademik Zərifə xanım Əliyevanın tibb elminə verdiyi töhfələr, yüksək mənəvi xüsusiyyətləri unudulmayacaq, əziz xatirəsi daim yaşayacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***“Onun zəngin elmi irsi, tədqiqatları, qazandığı nailiyyətlər, fundamental əsərləri Azərbaycan tibb elminin parlaq səhifəsini təşkil edir. Xalqımızın yetişdirib dünya tibb elminə bəxş etdiyi görkəmli alimin və istedadlı həkimin şəxsiyyəti bu gün də – ölkəmizin müstəqillik şəraitində yaşadığı dövrdə də hər bir alimin və Hippokrat andını içmiş hər bir həkimin cəmiyyətdə oynamalı olduğu rola parlaq nümunədir”.***

Tədbirdə çıxış edən Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin direktoru Valentina Antonenko qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ömür-gün yoldaşı olmuş akademik Zərifə xanım Əliyevanın adının Ukraynada əbədiləşdirilməsi onlar üçün böyük fəxrdir. Böyük alimin tibb elminə verdiyi töhfələr bütün dünyada olduğu kimi, Ukraynada da yüksək qiymətləndirilir. O, böyük alimin adını daşıyan məktəb haqqında da danışaraq burada yaradılmış şəraitdən və təhsil imkanlarından da bəhs edib. Səkkiz il əvvəl də Naxçıvanda olduğunu deyən qonaq akademik Zərifə xanımın xatirəsinin əbədiləşdirilməsi üçün görülmüş işlərdən böyük təəssürat aldığını bildirib.

Tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova “Akademik Zərifə xanım Əliyeva: xeyirxah insan, fədakar ana, əsl Azərbaycan qadını”, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Səadət Əlizadə “Alimlik zirvəsi, Zərifə xanım Əliyevanın xeyirxahlığı, ağıl və qüdrət məktəbi”, Zərifə xanım Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin aparıcı məsləhətçisi, tibb üzrə fəlsəfə doktoru Günay İbrahimzadə “Okuloplastik cərrahiyyənin xüsusiyyətləri”, Zərifə xanım Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin aparıcı məsləhətçisi Ruslan Məmmədov “Göz daxili yad cisim olan xəstələrdə müalicə taktikası” mövzularında çıxış etmişlər. Çıxışlarda qeyd edilmişdir ki, Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti ilə tanınan bir alim idi. Heç bir zaman gərgin işdən yorulmamış Zərifə xanım bir həkim kimi ən yüksək zirvəyə ucalmışdır.

Sonda məktəblilər tərəfindən Zərifə xanım Əliyevaya həsr olunmuş şeirlər bədii qiraət olunmuş, fotoşəkillər nümayiş etdirilmişdir.

* * *



***Xəbər verdiyimiz kimi, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü münasibətilə Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin bir qrup müəllimi Naxçıvan Muxtar Respublikasına gəlib. Aprelin 28-də qonaqlar Kəngərli rayonuna səfər ediblər.***

İlk olaraq Qarabağlar Türbə Kompleksi ilə tanış olan qonaqlara məlumat verilib ki, XII-XIV əsrlərə aid edilən kompleksdən dövrümüzədək qoşa minarəli baştağ və türbə gəlib çatıb. Qarabağlar Türbə Kompleksinin xalqımızın maddi-mədəniyyət abidələri arasında tarixi mövqeyini, dünya əhəmiyyətli abidə olmasını nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2016-cı il 4 iyul tarixdə “Qarabağlar Türbə Kompleksinin bərpa və tədqiq olunması haqqında” Sərəncam imzalayıb. Sərəncama uyğun olaraq Qarabağlar Türbə Kompleksində bərpa işləri aparılır.

Sonra qonaqlar Şahtaxtı kənd tam orta məktəbində akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümünə həsr olunmuş tədbirdə iştirak ediblər. Tədbir iştirakçıları akademik Zərifə xanım Əliyevanın məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyub, adını daşıyan muzeyə baxıblar. Görkəmli alimin xatirə muzeyi ilə tanış olan qonaqlar İrpen şəhərindəki Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin kollektivi tərəfindən hazırlanmış fotoalbomu muzeyə hədiyyə ediblər.



Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü münasibətilə keçirilən tədbirdə Şahtaxtı kənd tam orta məktəbinin direktoru Sarvan Məmmədov çıxış edərək görkəmli alimin həyat və fəaliyyəti haqqında danışıb. Bildirilib ki, Zərifə xanım Əliyeva yüksək mədəniyyəti, zərif qəlbi, elmə sədaqəti, insanlara münasibəti ilə xalqımızın qəlbində həmişə yaşayır, parlaq xatirəsi daim böyük ehtiramla anılır. Geniş dünyagörüşü, dərin tədqiqatçılıq bacarığı, yüksək ziyalılığı ilə hamının rəğbətini qazanmış bu fədakar alimin həyat və yaradıcılığı hər bir Azərbaycan vətəndaşı, hər bir elm adamı və tibb işçisi üçün həyat və mənəviyyat, kamillik, müdriklik məktəbidir.

İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin direktoru Valentina Antonenko bildirib ki, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü münasibətilə onun doğulduğu kənddə adını daşıyan məktəbdə olmaq hər birimiz üçün qürurvericidir. Direktor qeyd edib ki, rəhbərlik etdiyi məktəbdə 2000-ə yaxın şagird təhsil alır. Məktəbin 58 sinfi var. Orada bir çox xarici dil tədris olunur. Əsas baza olaraq ingilis dili öyrədilsə də, 5-ci sinifdən valideynlərin seçimi ilə şagirdlər ikinci xarici dili də öyrənməyə başlayırlar. Vurğulanıb ki, biz Naxçıvanda olarkən bir neçə orta ümumtəhsil məktəblərində olduq. Məktəbləriniz müasir və gözəldir. Ən çox xoşumuza gələn isə şagirdlərin gözəl məktəbli forması ilə təmin olunmasıdır.

Valentina Antonenko bildirib ki, hazırda İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbini Şahtaxtı kənd tam orta məktəbi ilə qırılmaz dostluq əlaqələri bağlayır. Bu gün görkəmli alimin doğum günündə sizin kimi biz də çox sevinc hissi keçiririk. Valentina Antonenko bu səfərin baş tutmasına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova nümayəndə heyəti adından minnətdarlığını bildirib.

Şahtaxtı kənd tam orta məktəbinin müəllimi Nilufər Rzayeva çıxışında bildirib ki, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsini təşkil edir. Görkəmli alim oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində dəyərli elmi nəticələr ortaya qoyub.

Sonra məktəbin şagirdləri tərəfindən Zərifə xanım Əliyevaya həsr olunmuş şeirlər bədii qiraət olunub.

**“Şərq qapısı”**

## “Heydər Əliyev: təltiflər” kitabı Miniatür Kitab Muzeyinin Naxçıvan filialına hədiyyə edilib




Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Heydər Əliyev: təltiflər” miniatür kitabı Miniatür Kitab Muzeyinin Naxçıvan filialına hədiyyə olunub. Hədiyyəni Azərbaycan Miniatür Kitab Muzeyinin yaradıcısı və kitabın tərtibatçısı olan Zərifə Salahova təqdim edib. Miniatür kitabda ümummilli lider Heydər Əliyevə verilən müxtəlif təltiflər haqda məlumat yerləşdirilib.

Qeyd edək ki, Azərbaycan Miniatür Kitab Muzeyinin Naxçıvan filialı 2014-cü ildən fəaliyyətə başlayıb. Burada bir çox ölkələrdə çap olunmuş 1119 kitab sərgilənir. Sərgidə ümummilli lider Heydər Əliyevlə bağlı kitablarla yanaşı, dünya və Azərbaycan klassiklərinin əsərlərindən də nümunələr yer alıb. Ekspozisiyasında 5570 kitab olan Azərbaycan Miniatür Kitab Muzeyinin kolleksiyası böyüklüyünə görə Ginnesin Rekordlar Kitabına da düşüb.

**Xəbərlər şöbəsi**

## Gənc müəllif Nicat Əsədliyə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hədiyyələri təqdim olunub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı gənc nəsildə vətənpərvərliyin, tarixə, milli köklərə bağlılığın formalaşdırılmasında mühüm rola malikdir. Ölkə ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilən bu dövlət aktı müasir dövrdə kitaba yenidən, həm də məqsədyönlü şəkildə qayıdışa çağırışdır.*



Naxçıvan şəhərindəki Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdi Nicat Əsədli də digər məktəbli gənclər kimi yaradılan şəraitdən səmərəli istifadə edib, Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin 70-dən artıq əsərini oxuyub və onlar haqqında düşüncələrini yeni nəşr olunmuş "Sevimli dostlarım – kitablar" kitabında toplayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Nicat Əsədlinin bu təşəbbüsünü qiymətləndirərək ona məktub göndərmişdir. Həmin məktubda deyilir ki, ***"Ötən il uşaq və gənclərimizi, məktəbliləri oxu mədəniyyətinə təşviq etmək üçün "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam verilmişdir. Həmin kitablar barədə qeydlərin sənin və sənin timsalında məktəbli gənclərimizin düz yolda – tarixə, milli kökə bağlılıq yolunda, vətənpərvərlik yolunda yetişməsinin göstəricisidir".*** Ali Məclisin Sədri Nicat Əsədlini ilk kitabının nəşr olunması münasibətilə təbrik etmiş, faydalı təşəbbüsünə görə təşəkkürünü bildirmişdir.

Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin məktubunu və hədiyyəsini, eləcə də oxunması zəruri olan kitabları Nicat Əsədliyə təqdim edib.

Nicat Əsədli göstərilən diqqət və qayğıya görə minnətdarlıq edərək deyib: – Təhsil aldığım Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbdə şagirdlərin yaxşı oxumaları, biliklərə yiyələnmələri üçün hər cür şərait yaradılıb. Məktəb kitabxanamız bədii ədəbiyyatlarla zəngindir. Mütaliə ən çox sevdiyim məşğuliyyətdir. Ali Məclis Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamı bir şagird kimi mənim mütaliəyə marağımı daha da artırdı. Məktəbimizdə oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb. Mən həmin kitabların çoxunu mütaliə etmişəm. Bu gün də mütaliəmi davam etdirirəm. Nəşr etdirdiyim kitabda onlar haqqında məlumatlar vermişəm. Oxunması zəruri olan kitablar mənim ən dəyərli xəzinəmdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən fəaliyyətimin qiymətləndirilməsi isə qazandığım ən böyük mükafatdır. Göstərdiyi diqqətə və hədiyyələrə görə Ali Məclisin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq Asim Yadigar vurğulayıb ki, bu gün muxtar respublikanın bütün təhsil ocaqlarında, hətta ən ucqar dağ kəndlərindəki məktəblərdə də gənclərin yüksək təhsil almaları üçün hərtərəfli şərait yaradılıb. Muxtar respublika gəncləri diqqət və qayğı ilə əhatə olunublar. Bunun nəticəsində gənclərimiz ictimai həyatın bütün sahələrində öz fəaliyyətləri ilə seçilirlər. İstedadlı, savadlı, bacarıqlı gənclər muxtar respublikamızın inkişafına öz töhfələrini verir, bunu özlərinin vətəndaşlıq borcu sayırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamı isə muxtar respublikada mütaliə mədəniyyətinin inkişafına əhəmiyyətli təsir göstərib. Nicat Əsədlinin də mütaliə etməsi və oxuduğu kitablar haqqında qısa esselər yazaraq kitab halında nəşr etdirməsi Ali Məclis Sədrinin göstərdiyi diqqət və qayğının əyani ifadəsidir.

Nicat Əsədlinin babası Mustafa Əsədov və atası Ramin Əsədov da Ali Məclis Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

**"Şərq qapısı"**

## Dünya Şahmat Federasiyasının vitse-prezidenti: "Muxtar respublika son illər şahmat idman növü üzrə beynəlxalq turnirlərin keçirilməsi üçün mərkəz rolunu oynayır"





Dünya Şahmat Federasiyasının vitse-prezidenti, Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti Gülkız Tülayın rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.

Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gələrək öz ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Nümayəndə heyəti Culfa, Ordubad və Babək rayonlarında fəaliyyət göstərən Uşaq-gənclər şahmat məktəblərində olub, burada dərs prosesini izləyib, turnirlərdə uğurlar qazanan gənc şahmatçılarla görüşüblər.

Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti ilə maraqlanan qonaqlara məlumat verilib ki, Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən də müraciətlər olur.

Duz Muzeyi ilə tanışlıq zamanı bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən yaradılan Naxçıvan Duz Muzeyi xalqımızın tarixinin, mədəniyyətinin, milli-mədəni dəyərlərinin qorunub yaşadılması baxımından mühüm əhəmiyyətə malikdir.

Qonaqlar, həmçinin "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey kompleksləri ilə də tanış olub, Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət edib, Naxçıvan Biznes Mərkəzinin fəaliyyəti ilə maraqlanıblar.

Naxçıvan Şəhər Şahmat Mərkəzində yaradılan şərait nümayəndə heyətində xoş təəssürat yaradıb. Bildirilib ki, 2009-cu ildə fəaliyyətə başlayan mərkəz ötən dövr ərzində gənc zəka sahiblərinin yetişməsində, uşaqlar arasında bu idman növünə marağın artırılmasında mühüm rol oynayıb.

Dünya Şahmat Federasiyasının vitse-prezidenti, Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti Gülkız Tülay "Şərq qapısı" qəzetinə müsahibəsində səfərinin məqsədi və təəssüratları barədə deyib:

– Səfərimin məqsədi Naxçıvanda fəaliyyət göstərən şahmat məktəbləri ilə yaxından tanış olmaq, mayın 1-də start veriləcək "Naxçıvan – 2018" Beynəlxalq Şahmat Festivalının açılışında iştirak etmək və gələcəkdə bu idman növü üzrə həm Türkiyədə, həm də Naxçıvanda keçiriləcək yarışlarda idmançıların iştirakını təmin etmək üçün birgə əməkdaşlığı daha da artırmaqdır.

Muxtar respublikanın bir sıra şahmat məktəblərində olduq və gördük ki, Naxçıvanda şahmatın inkişafı, kütləviliyinin təmin edilməsi üçün böyük işlər görülüb. Təsadüfi deyil ki, muxtar respublika son illər bu idman növü üzrə beynəlxalq turnirlərin keçirilməsi üçün mərkəz rolunu oynayır. Bütün bunlar Türkiyə dövlətini və türk xalqını ürəkdən sevindirir. İnanırıq ki, gələcəkdə bu idman növü üzrə birgə səylərimiz daha yüksək nəticələr verəcək.

Qədim diyara səfərimiz çərçivəsində fürsətdən istifadə edib muxtar respublikanın bir sıra tarixi abidələrini, mədəniyyət, səhiyyə müəssisələrini gəzdik, Naxçıvan Biznes Mərkəzinin fəaliyyəti ilə maraqlandıq. Olduğumuz hər yerdə bizi qonaqpərvərliklə qarşıladılar. Buna görə minnətdaram.

Sonda qeyd etmək istəyirəm ki, muxtar respublikanın tarixiliyi, eyni zamanda müasir görünüşü məni heyran etdi. Naxçıvanda olduğuma, bu qədim diyarla yaxından tanışlığıma çox sevindim. Bura gələcəkdə bir daha səfər etməyi düşünürəm.

**✍ Nail ƏSGƏROV**

## Naxçıvanın qədimliyi və müasirliyi ukraynalı qonaqlarda zəngin təəssüratlar yaradıb

***Xəbər verdiyimiz kimi, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95-ci ildönümü münasibətilə Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin bir qrup müəllimi Naxçıvan Muxtar Respublikasına səfərə gəlib. Səfər çərçivəsində qonaqlar Naxçıvanın gəzməli-görməli yerləri ilə tanış olub, muxtar respublikanın təhsil, mədəniyyət, səhiyyə müəssisələri ilə maraqlanıblar. Nümayəndə heyətinin üzvləri Naxçıvanla bağlı təəssüratlarını "Şərq qapısı" qəzetinin oxucuları ilə bölüşüblər.***

***Valentina Antonenko – İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbinin direktoru:***



– Mən, ilk növbədə, bu səfərin təşkilində bizə göstərdiyi köməyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova öz minnətdarlığımı bildirirəm. Biz burada muxtar respublikanın bir çox təhsil və mədəniyyət müəssisələrində olduq, Duzdağ Fizioterapiya Mərkəzinə getdik. Bizim üçün maraqlı olan Naxçıvanın çox qədim tarixə və mədəniyyətə malik olmasıdır. Daha maraqlısı isə buradakı insanların öz tarixinə, dəyərlərinə böyük sevgi ilə sahib çıxması, onu təbliğ etməsi, tanıtdırmasıdır. Məsələn, biz Şərq memarlığı incilərini özündə əks etdirən və hazırda bərpa olunan Qarabağlar Türbə Kompleksi ilə tanış olduq. Bu kompleksin timsalında tarixi abidələrə göstərilən bu qayğı dövlətinizin tarixi keçmişinizə verdiyi önəmin ifadəsidir. Naxçıvan həm tarixi keçmişi və mədəniyyəti, həm də müasir sürətli inkişafı ilə bizi özünə valeh etdi.

***Lyudmila Arbuzina – məktəbin dərs hissə müdiri:***

– Sizin ölkəniz və xalqınız haqqında yetərli qədər məlumatlıyıq. Azərbaycan, eləcə də hazırda səfərdə olduğumuz Naxçıvan Muxtar Respublikası böyük bir inkişaf yolu keçib.



Biz burada olarkən Naxçıvanın bir çox tarixi abidələrini ziyarət etdik, muzeylərdə, eyni zamanda bir çox ümumtəhsil məktəblərində olduq. Təhsil ocaqlarının hamısı yaraşıqlı, müasir, yeni dövrün texnoloji vasitələri ilə təmin olunub. Bu, onu göstərir ki, Naxçıvanda təhsilə böyük diqqət göstərilir, dövlət tərəfindən nə lazımdırsa, edilir. Eyni zamanda biz dəstəyi digər sahələrdə də görmək mümkündür. Duzdağ Fizioterapiya Mərkəzi müasir şəraiti ilə gözoxşayan mühüm sağlamlıq mərkəzidir. Öyrəndik ki, hər il dünyanın müxtəlif ölkələrindən bura müalicə olunmaq üçün gəlirlər. Məhz belə bir mərkəz Naxçıvanın tanıdılmasında, onun hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Bir sözlə, gördüyümüz hər bir təhsil, mədəniyyət ocağı, eləcə də gözəlliyi ilə diqqətimizi cəlb edən Naxçıvan şəhəri bizə çox zəngin təəssüratlar verdi və biz Ukraynaya qayıtdıqdan sonra bu təəssüratları məktəbimizin kollektivi ilə bölüşəcəyik.

***Alla Çumak – məktəbin müəllimi:*** – Bu, mənim Naxçıvana ikinci gəlişimdir, ilk dəfə 2010-cu ildə gəlmişdim. Aradan 8 il keçib, bu dövr ərzində Naxçıvan çox dəyişilib, yeni binalar tikilib, yaşıllıqların həcmi artıb. Ən çox xoşuma gələn isə Naxçıvanın hansı səmtinə üz tutsan, orada təmizliyin qorunub saxlanılmasıdır. İnsanların istiqanlılığı isə bu gözəlliyi daha da artırır.



Biz burada müxtəlif muzeylərə baş çəkdik. Heydər Əliyev Muzeyi öz möhtəşəmliyi ilə qürurvericidir, həm də öyrəndik ki, bu muzey görkəmli dövlət xadiminin hələ sağlığında yaradılmış bir mədəniyyət ocağıdır. Bizə məlumat verdilər ki, Naxçıvana gələn qonaqların böyük əksəriyyəti şəhərlə tanışlığa məhz buradan başlayır. Bundan əlavə, Ordubad şəhərində olduq və bu qədim şəhər bizim çox xoşumuza gəldi. Tarixi küçələri, möhtəşəm çinar ağacları ilə əhatə olunmuş şəhərdə müasir inkişafı təzahür etdirən yeni tikililər də göz oxşayır. Naxçıvanla bağlı danışacağımız çox maraqlı təəssüratlarımız var.

***Oksana Zubenko – məktəbin müəllimi:*** – Naxçıvan havasının gözəlliyi, küçə və yollarının təmizliyi ilə diqqətimi çəkdi. İnsanların gülərüzlülüyü və qonaqpərvərliyini isə sözlə ifadə edə bilmirəm, çox mehribandırlar. Bununla yanaşı, demək istəyirəm ki, çox zəngin mətbəxiniz var. Yeməklərinizin dadından doymaq olmur. Naxçıvanı şəhər kimi maraqlı edən digər bir amil isə qədimliklə müasirliyin bir-birini tamamlamasıdır. Məsələn, Möminə xatının şərəfinə tikilmiş möhtəşəm bir tarixi abidədən bir neçə metr uzaqlaşmaq kifayət edir ki, müasir park və yaşıllıqların, yeni binaların əhatəsində olasan. Və yaxud bir zamanlar Naxçıvan xanlarının yaşadığı iqamətgahdan ətrafı seyr etmək kifayət edir ki, müasir tikililərin yaratdığı ansamblı görə biləsən. Ümumiyyətlə, Naxçıvanda harada olduqsa, çox zəngin təəssüratlar əldə etdik. Bu qədim Azərbaycan torpağına yenə gəlməyi düşünürəm.



Qeyd edək ki, Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən Akademik Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbindən gəlmiş nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfəri bu gün başa çatır.

**✍ Səbuhi HƏSƏNOV**

# Dəqiq və sürətli hesablamaların harmoniyası: şahmat

## *Muxtar respublikamızda bu idman növünün inkişafı daim diqqət mərkəzindədir*



***Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu idman siyasəti bu gün ölkəmizdə uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, respublikamız dünyada sürətli iqtisadi yüksəlişi ilə yanaşı, həm də idman sahəsində qazandığı çoxsaylı uğurları ilə diqqəti cəlb edir. Azərbaycan artıq bir idman ölkəsidir. Böyük reallığı əks etdirən bu fikir öz təsdiqini qazanılan nailiyyətlərlə də tapmaqdadır.***

Müasir Azərbaycan gəncinin idmanın müxtəlif növlərinə yönəlməsi, gələcək nəslin sağlam, vətənpərvər ruhda böyüməsi üçün ölkənin bütün regionlarında idman obyektləri, kompleksləri tikilib istifadəyə verilir. Müasir idman infrastrukturuna malik Naxçıvan Muxtar Respublikasında da idmanla məşğul olan gənclərin sayının gündən-günə artması idmanın kütləviliyindən xəbər verir. Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən muxtar respublikadakı federasiyalar təşkil etdikləri yarışlarla, turnirlərlə bu sahəyə öz töhfələrini verirlər. Hərtərəfli şəraitlə təmin olunan Şahmat Federasiyası da hazırda bu növün kütləviliyi üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlayır.

Dünyada dəqiq və sürətli hesablamaların harmoniyası hesab edilən şahmat asan göründüyü qədər də çətindir. Şahmat öz mənşəyini VI əsrə məxsus qədim hind “çaturanqa” oyunundan götürüb, bu söz qədim sanskrit dilindən “dörd qoşun bölməsi” kimi tərcümə olunur, bu qoşun özündə piyada, süvarilər, fil dəstələri və cəng arabalarını (qədimdə: ikitəkərli müharibə arabası) əhatə edir. Bu oyun VII əsrdə İranda “şahrənc” adı ilə tanınır. “Şahmat” sözü isə oyunun məhz fars dilli versiyasında əmələ gəlib. Oyunçular rəqibin şahına həmlə etdikdə “Şah” və “Şah mat” (fars dilində “şah öldü” deməkdir) deyirlər.

Təbii ki, digər idman növləri kimi, şahmat da müxtəlif dəyişikliklərə məruz qalıb və müasir şəklini alıb. “Şahmat taxtasında bütün dənizlərdən daha çox macəra var”, – deyən məşhur fransız yazıçısı Pyer Mak-Orlan, “Şahmat taxtası insan zehninin gimnastika zalıdır”, – deyən filosof Paskal bu oyunun beyinin aktivliyinə nə qədər təsir göstərdiyini bir cümlədə ifadə edirlər. Məhz buna görə hollandiyalı rəssam İpe Rubinqstal şahmatı fiziki sınaqlarla birləşdirərək şahboks yaratmaq qərarına gəlib. Şahboksda şahmat və boksun raundları bir-birini əvəzləyir və onun devizi belə səslənir: “Döyüşlər rinqdə baş verir, müharibələr isə lövhələr üzərində aparılır”.

Filosoflar qeyd edirlər ki, şahmatda 3 gedişdən sonra tərəflərin 9 milyon növbəti gediş variantı olur. Hazırda 1000-dən çox müxtəlif başlanğıc mövcuddur. Şahmat insan yaddaşının gücləndirilməsinin ən məhsuldar üsulu hesab edilir. Təsadüfi deyil ki, məhz şahmatın gənclərin əqli inkişafına mühüm təsirini nəzərə alaraq məktəblərdə şahmat dərnəkləri yaradılıb.

Dəyişikliyə məruz qalan şahmat əvvəllər saatsız oynanılırdı. Bu zaman oyunçular oyunu saatlarla və günlərlə uzadır, öz rəqiblərini əldən salmağa çalışırdılar. 1852-ci ildən etibarən beynəlxalq turnirlərdə qum saatlarından istifadə edilməsinə başlanıldı. 1883-cü ildə isə Tomas Uilson tərəfindən ilk mexaniki şahmat saatları yaradıldı. Müasir dövrümüzdə şahmat kompüter proqramlarının vacib bir hissəsinə çevrilib. Bu gün kompüter proqramları əksər hallarda oyunçular tərəfindən keçirilmiş oyunların təhlili və öz qabiliyyətlərini təkmilləşdirmək məqsədilə istifadə olunur. Onları, adətən, qrossmeysterlər ilə bərabər səviyyədə tuturlar.



Şahmatı anadangəlmə yüksək istedad və intellektual qabiliyyətə malik olan insanlar üçün bir oyun hesab edirlər. Müəyyən qədər bu həqiqət olsa da, şahmat oynayaraq öz intellektual qabiliyyətini yüksəltməyin mümkünlüyü də reallıqdır. Bu oyun beyinin hər iki yarımkürəsinin fəaliyyətini aktivləşdirir, diqqəti cəmləməyi, oxumaq vərdişlərini təkmilləşdirir.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da şahmat idman növünə böyük diqqət və qayğı ilə yanaşılır. 2009-cu ildə ölkə başçısının Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Naxçıvan şəhərində Şahmat Mərkəzinin açılışı olub, sonrakı illərdə muxtar respublikanın bölgələrində də Uşaq-gənclər şahmat məktəbləri istifadəyə verilib. Hər il ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş Beynəlxalq Şahmat festivallarının keçirilməsi bu idman növünə olan diqqətin ildən-ilə artdığını göstərir.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası son illər ərzində bir çox uğur əldə edib. Uğurların siyahısında daha çox beynəlxalq turnirlərin olması isə sevindirici haldır. Təbii ki, beynəlxalq arenalarda qazanılan nailiyyətlər idmançılarımızın ölkədaxili turnirlərdə uğurlu çıxışlarından irəli gəlir. Muxtar respublikada qədim ənənələrə malik olan bu idman növünün inkişafı üçün hər cür şərait yaradılıb. Təkcə 2017-ci ildə muxtar respublikada 4 dəfə Naxçıvan Muxtar Respublika birinciliyi, 5 dəfə FİDE-də qeydiyyata düşmüş beynəlxalq reytinqli açıq birinciliklər keçirilib, əlamətdar günlərdə müxtəlif səviyyəli yarışlar təşkil olunub. Eyni zamanda bu dövrdə Şahmat Federasiyasının 1 beynəlxalq qrossmeysteri, 2 beynəlxalq ustası, 3 FİDE ustası formalaşıb.

2017-ci il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə şahmatçımız Pərviz Qasımovun adı gənc istedadların “Qızıl kitabı”na salınıb, o, aylıq təqaüdə layiq görülüb. Həmçinin federasiyanın yetirməsi Toğrul Həsənzadəyə pul mükafatı verilib.

Muxtar respublikamızda bu idman növünün inkişafı, kütləviliyi üçün tam orta məktəblərdə dərslər tədris olunur. Eyni zamanda şəhər və rayonlarda müasirtipli şahmat məktəbləri tikilib uşaq və yeniyetmələrin ixtiyarına verilib. Bunun nəticəsidir ki, bu gün Naxçıvanda qədim idman növünə olan maraq gündən-günə artmaqdadır. Zəka sahiblərimiz muxtar respublikanı çıxış etdikləri yarışlarda layiqincə təmsil edirlər. Xüsusilə Beynəlxalq Şahmat Festivalı gənc və perspektivli şahmatçılar üçün açıq bir qapıdır. Dünyanın müxtəlif ölkələrindən gələn şahmatçılarla rəqabət idmançılarımızın yarış təcrübəsini artırmaqla yanaşı, onların peşəkarlaşmasına da əhəmiyyətli təsir göstərir. Təsadüfi deyil ki, son illər hər festivalda naxçıvanlı şahmatçılar uğurlu nəticələr əldə ediblər.

Bu gün “Naxçıvan – 2018” Beynəlxalq Şahmat Festivalına start verilir və 300-dən çox zəka sahibini 10 gün ərzində gərgin mübarizə gözləyir. Naxçıvanda keçirilən beynəlxalq şahmat festivalı şahmatın inkişafının, gənc istedadların bu sahədə nə qədər bacarıqlı olmasının, onlara göstərilən dövlət qayğısının növbəti göstəricisidir. Təşkil edilən belə turnirlər artıq Naxçıvanı şahmat mərkəzinə çevirib. Həyata keçirilən məqsədyönlü tədbirlər şahmatın daha kütləvi xarakter almasına, bir diyarda beynəlxalq qrossmeyster, FİDE ustalarının yetişməsinə zəmin yaradıb.

## Fotomüsabiqənin qalibləri mükafatlandırılıb

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda gənclər arasında “Naxçıvan Gənclər Paytaxtıdır” adlı fotomüsabiqə keçirilib.

Müsabiqənin keçirilməsində məqsəd gənclərin muxtar respublikanın tanıdılmasında və təbliğində fəallığının artırılması və istedadlı gənclərin üzə çıxarılmasıdır.

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun əməkdaşı Ceyhun Xəlilli çıxış edərək muxtar respublikada gənclərə göstərilən diqqət və qayğıdan, bu sahədə görülən işlərdən danışıblar. Onlar gənclərin Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar keçirilən tədbirlərdə və muxtar respublikanın turizm potensialının tanıdılmasında fəal iştirak edəcəklərinə əminliklərini bildiriblər.

Müsabiqəyə 35-ə yaxın gəncin muxtar respublikanın turizm və istirahət məkanlarını, müasir infrastrukturunu, tarixi abidələrini əks etdirən 120-dək foto təqdim olunub. Münsiflər heyətinin qərarına əsasən Naxçıvan Dövlət Universitetinin tələbəsi Anar Sadiqov və Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Veysəl Xudanlı qalib adını qazanıblar. Heydər Əliyev adına Hərbi Liseyin kursantı Röyal Əliyev, Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Onur Bağırlı, Naxçıvan Tibb Kollecinin tələbəsi Nuray Əliyeva ikinci, Naxçıvan Dövlət Texniki Kollecin tələbəsi Teymur Hacıyev, Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdi Cavid İsayev, Heydər Əliyev adına Hərbi Liseyin müəllimi Hüseyn Rəfiyev üçüncü olublar.

Qaliblərə təşkilatçılar tərəfindən diplom, fəxri fərman və hədiyyələr təqdim edilib.

## Cüdo komandamızdan böyük uğur

***Xaçmaz rayonunda cüdo üzrə 15 yaşlılardan ibarət komandaların Azərbaycan Cüdo Federasiyasının kubokü uğrunda yarışı keçirilib. Yarışda Naxçıvan Muxtar Respublikası Gülləş Federasiyasının cüdo komandası da mübarizə aparıb.***



Regionlar üzrə keçirilən yarışda komandamız 114 xal toplayıb. Həmin nəticəyə əsasən 15 yaşlılardan ibarət cüdo komandamız kubok yarışının üçüncü pilləsində başa vuraraq yarımfinal mərhələsinə vəsiqə qazanıb.

Qeyd edək ki, yarımfinal mərhələsi bu il iyunun 1-2-də Şamaxı rayonunda keçiriləcək.

## *“Arşın mal alan”* tamaşası nümayiş etdirilib

Aprelin 30-da Naxçıvan Dövlət Uşaq Teatrında Culfa rayonunun dram dərnəyi böyük bəstəkarımız Üzeyir Hacıbəyovun “Arşın mal alan” operettasını tamaşaçılara təqdim edib.



Tamaşanın diqqəti cəlb edən cəhəti bütün rolları gənclərin təbii və canlı şəkildə təqdim etməsidir. Əsərdəki musiqilərin canlı ifası da gənclərin istedad və bacarığından xəbər verir. Tamaşadakı obrazları, əsasən, rayonun Əbrəqunus, Kırna, Bənəniyar və Gülüstan kəndlərindəki mədəniyyət müəssisələrində çalışan mədəniyyət işçiləri canlandırıblar.

Qeyd edək ki, dahi sənətkarımızın bu əsəri olduqca sadə, xalqa yaxın, onu səhnələşdirmək isə bir o qədər çətin və məsuliyyətlidir. Komik səhnələr, gözəl musiqi, maraqlı dialoqlar, hadisələrin yüksələn xətlə inkişafı, sürətlərin kaloriti ifaçılardan həmişə istedad və sənətkarlıq tələb edir. Buna baxmayaraq, dram dərnəyinin gənc ifaçıları əsərin səhnələşdirilməsinə nail ola biliblər. Bu mənada, tamaşanı gənc kollektivin uğuru hesab etmək olar.

“Arşın mal alan” tamaşasının rejissoru Sahib Əliyev, rəssamı Culfa Şəhər Klubunun müdiri Aidə İbrahimovadır. Tamaşadakı musiqilərin ifaçıları isə Tahir Səmədov və Yaşar Hümbətovdur.

Qeyd edək ki, xalq teatrları olmayan rayonlarda ilkin olaraq dram dərnəklərinin yaradılması üçün tədbirlər görülür. 2017-ci ilin sonlarında Culfa rayonunda yaradılan dram dərnəyi də məhz belə kollektivlərdəndir. Bu dram dərnəyinin yaradılmasının əsas təşəbbüskarları rayonun mədəniyyət müəssisələrində çalışan gənclərdir.

**Əli RZAYEV**

## Karate-do Federasiyasının yetirməsi Rusiya çempionatının qalibi olub

Rusiya Federasiyasının Omsk şəhərində uşaq və yeniyetmələr arasında karate-do üzrə Rusiya çempionatı keçirilib. Çempionatda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi Rəşid Süleymanov 10-11 yaş qrupunda mübarizə aparıb.



İdmançımız tatami üzərinə 42 kiloqram çəki dərəcəsində çıxıb və bütün rəqiblərinə qalib gələrək yarışın baş mükafatını qazanıb.

Sonda idmançımıza təşkilatçılar tərəfindən diplom, medal və kubok təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Cəfərəliyev Qadir Cabbar oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ *qapısı***

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 321**